

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 yanvar 2023-cü il №6 (2718) https://mod.gov.az Qiyməti 30 qəpik


# Tarix yaradan şəxsiyyət

*Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı uğruna böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Ulu Öndər Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin hər bir problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarix yaradan şəxsiyyətdir.*




1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində dünyaya göz açan dahi şəxsiyyət ilk təhsilini də Naxçıvanda alıb. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub. Yalnız İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib. 1941-1944-cü illərdə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işlədikdən sonra 1944-cü ilin mayında dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib. SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. Hər zaman təhsilə böyük önəm verən Heydər Əliyev 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib. 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib. Ən önəmli hadisələrdən biri 1969-cu iyulun 14-də baş verdi. Həmin tarixdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri oldu. Ulu Öndərin Azərbaycanda rəhbər seçilməsi xalqımızın tarixi və taleyində əhəmiyyətli dönüşün başlanğıcı, eyni zamanda, ölkəmizin sürətli və uzunmüddətli inkişafının əsasının qoyulduğu tarixdir. Ulu Öndər o mürəkkəb tarixi şəraitdə ölkəmizi keçmiş ittifaqın ən qabaqcıl respublikalarından birinə çevirmək üçün qısa müddətdə bütün sahələrdə geniş islahatlar proqramı həyata keçirməklə, gələcək müstəqil və güclü Azərbaycanın əsasını qoyurdu.

Respublikaya rəhbərliyə gəldikdən sonra Ulu Öndər çox qısa bir müddət ərzində Azərbaycanın ictimai və siyasi həyatında böyük və əhəmiyyətli dəyişikliklər etdi. Məhz bu səbəbdən Heydər Əliyev 1982-ci ildə sovetlər ittifaqında ali rəhbər vəzifədə olduğu zaman Azərbaycan artıq inkişaf etmiş sənaye respublikası kimi tanınırdı. O illərdə respublikada çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu.

Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanda rəhbər olduğu dövrdə yaratdığı sosial-iqtisadi, siyasi, mənəvi, psixoloji baza sonrakı dövrdə - müstəqillik illərində Azərbaycan xalqı üçün çox böyük əhəmiyyət kəsb etdi. SSRİ-nin dağılması ərəfəsində 15 müttəfiq respublikadan yalnız 3-ü - Rusiya, Ukrayna və Azərbaycan öz daxili imkanları hesabına iqtisadi problemlərini həll etməyə qadir idi.

1987-ci ildən etibarən sovet rəhbərliyinin himayəsi ilə ermənilər Azərbaycanın tarixi və əzəli torpağını, Qarabağın dağlıq hissəsini Ermənistana birləşdirmək üçün ekstremist fəaliyyətə başladılar. Bu səbəbdən dolayı ayağa qalxan Azərbaycan xalqı öz suverenliyini və ərazi bütövlüyünü qorumaq üçün kütləvi xalq hərəkatına başladı. Bu hərəkatda öndə olan qüvvələr məhz Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu dövrdə yaratdığı mühitin yetişdirdiyi insanlar idi. Heydər Əliyevin XX əsrin 70-ci illərində Azərbaycanda yaratdığı abhava milli şüurun oyanmasına, Azərbaycan dilinin inkişafına, dəyərlərimizin xalq tərəfindən mənimsənilməsinə, tarixi keçmişimizin hərtərəfli öyrənilməsinə şərait yaratdı. Belə bir mühit Azərbaycanda yerli kadrların yetişməsinə gətirib çıxarmışdı. Ümummilli Lider hakimiyyətdə olduğu dövrdə kadr siyasətində azərbaycançılıq prinsipinə ciddi riayət edib və bunu məqsədyönlü şəkildə həyata keçirirdi. Bunun nəticəsidir ki, Heydər Əliyevin hakimiyyəti dövründə kadr məsələsində azərbaycanlılar artıq üstünlük təşkil edirdi. Həmçinin o dövrdə ali təhsil ocaqlarında ədəbiyyatımızla, tariximizlə bağlı diskussiyaların aparılması, Azərbaycan tarixinin bütün ali təhsil ocaqlarında tədris proqramına daxil edilməsi Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin inkişafına xidmət edən siyasətinin nəticəsi idi. Azərbaycan xalqının öz tarixini, keçmişini, ədəbiyyatını və keçdiyi inkişaf yolunu öyrənə bilməməsi üçün Moskvadan həmişə bu işlərə mane olmağa çalışırdılar. Yəni, dövlətçilik ruhunun inkişafına ittifaq mərkəzi həmişə əngəl olmağa çalışırdı. Lakin Heydər Əliyev bu prosesləri həyata keçirməyə davam edirdi.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. O illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi. Bu gün ölkəmizə gözəllik verən yüzlərlə yaşayış və ictimai binalar, məktəblər, fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən ölkəmizin şimal-qərb ucqarını paytaxta bağlayan Bakı-Balakən dəmir yolu, eləcə də Xankəndinə dəmir yolunun çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

Xalqımızın güc və potensialına inanan və güvənən Heydər Əliyev böyük qətiyyətlə onu səfərbər edə bilmiş, bugünkü müstəqilliyimizin iqtisadi, siyasi, mənəvi əsaslarını hələ o illərdə yaratmağa başlamışdı. Onun respublikaya rəhbərlik etdiyi sovetlər dönəmində Azərbaycan neft və pambıq xammalı mənbəyindən o dövr üçün ən müasir texnologiyaların geniş tətbiq olunduğu yüksək sənaye respublikasına çevrilmişdi. O illərdə Heydər Əliyev ilk növbədə bugünkü dövlət müstəqilliyimizin əsası olan güclü iqtisadi bazanı yarada bilmiş, respublikanın özünü elektrik enerjisi və digər zəruri vasitələrlə tam təmin etməsinə şərait yaratmışdı. Azərbaycanın mənzərəsi tamamilə dəyişilmiş, respublikanın hər yerində böyük abadlıq işləri getmiş, yeni elektrik stansiyaları, su kəmərləri, meliorasiya qurğuları, Azərbaycan üçün tamamilə yeni müəssisələr istifadəyə verilmiş, ən başlıcası, bu sahələrdə işləyə bilən güclü kadr potensialı yetişdirilmişdi.

Bununla yanaşı, xalqımızın elmi, mədəniyyəti, incəsənəti də yeni inkişaf səviyyəsinə qaldırılmış, Azərbaycanın zəngin tarixi bütün dünyaya tanıdılmışdır. Bunlar hamısı onun zəhmətinin və böyük təşkilatçılıq işinin bəhrəsi idi. Ulu Öndərin fəaliyyətinin əsasını millimənəvi, dini dəyərlərimizə sıx bağlılıq, Azərbaycan və dünya tarixini mükəmməl bilməsi, xüsusi xidmət orqanlarında çalışarkən xalqımıza qarşı yönəlmiş siyasəti aydın görüb dərindən araşdırması təşkil etmişdir. Və bu amillər onun millətsevərlik, müstəqil dövlətçilik baxışlarının formalaşmasında çox böyük rol oynamışdır.

**(Ardı 2-ci səhifədə)**

# Tarix yaradan şəxsiyyət



(Əvvəli 1-ci səhifədə)

Heydər Əliyev xarakterinə görə praqmatik, dərin bilikli, məntiqli, cəsarətli, həyata keçirməyə çalışdığı ideyaları uğrunda əzmlə mübarizə aparan prinsipial rəhbər olmaqla yanaşı, millətini, xalqını, Vətənini sonsuz məhəbbətlə sevən lider idi. Onun hakimiyyətə gəldiyi ilk gündən atdığı çox mühüm, gələcəyə hesablanmış addımlarından biri də azərbaycanlılar arasında birlik yaratması, hakimiyyət strukturlarına əsasən azərbaycanlıların yerləşdirilməsi idi. Ötən əsrin 70-ci illərində gedən iqtisadi tərəqqinin, yeni zavod və fabriklərin tikintisinin bir mühüm cəhəti də Bakı şəhərinin böyüməsi və onun əhalisinin tərkibində azərbaycanlıların tam əksəriyyət təşkil etməsi idi. Yeni tikilən sənaye müəssisələrinə və zavodlara lazım olan işçi qüvvəsi paytaxta bölgələrdən gəlir və Bakı getdikcə milli şəhərə çevrilirdi. Azərbaycanı müstəqilliyə doğru aparmaq üçün Ulu Öndərin qarşısında duran əsas məqsədlərdən biri də iqtisadiyyatı müstəqil ölkə kimi yaşaya biləcək səviyyəyə qaldırmaq idi. Ona görə də 1969-1982-ci illəri bugünkü müstəqilliyin iqtisadi əsaslarının yaradılması mərhələsi adlandırmaq olar. O illərdə Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının, dövlət idarəçiliyinin və ictimai-siyasi həyatın dərin bilicisi kimi müvəffəq olmaq mümkün idi. Elə bu uzaqgörənliyinə və dərin siyasi baxışlarına görə onu Kremldə çox məsul bir vəzifəyə təyin etmişdilər.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə gəldiyi ilk gündən etibarən sovet rejiminin bütün ideoloji-siyasi baryerlərinə sinə gərərək xalqımızın özünüdərki üçün zəruri addımları atmağa, cəmiyyəti bütün istiqamətlərdə yüksəlişə hazırlamağa başlamışdır. Xalqımızı öz soy-kökünə qaytarmaq, zəngin ədəbi irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün təxirəsalınmaz tədbirləri həyata keçirən Ulu Öndər bu yöndə atdığı hər addımla həyatına təhlükələr yarana biləcəyini də bilirdi. Amma nə olursa-olsun, dahi şəxsiyyət öz yolundan dönən deyildi və dönmədi də.

Ümummilli Lider cəmiyyətdə milli məfkurənin gücləndirilməsi, dövlətçilik şüurunun yenidən formalaşması üçün hər bir azərbaycanlının yüksək təhsil almasını, elmi yenilikləri mənimsəməsini son dərəcə vacib amil hesab edirdi. Buna görə də əminliklə deyə bilərik ki, Azərbaycan tarixində ikinci maarifçilik hərəkatı məhz onun adı ilə bağlıdır. Ulu Öndərin rəhbərliyi altında təhsilin milliləşdirilməsi, dilimizin inkişafı, ictimai elmlərin tarixi xarakterinin qorunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü, zəhməti və uzaqgörənliyi sayəsində, böyük əziyyətlər bahasına tarixi addım atıldı.



1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna dərəcədə rolu oldu. Azərbaycan müstəqilliyini qazanan zaman Vətənin ağır günlərində SSRİ-nin müxtəlif şəhərlərində xidmət edən bu liseyin məzunları ölkəyə qayıtdılar və ordu quruculuğunda, Vətənin müdafiəsində yaxından iştirak etdilər. Böyük strateq illər sonra - 1998-ci ilin 31 avqustunda 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqində həmin dövrü xarakterizə edən məqamlara toxunaraq demişdi: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə, təhsil məsələləri ilə məşğul olmağa başladım. Bilirsiniz ki, mən o vaxta qədər də dövlət işində işləmişdim. Azərbaycanda təhsilin, xüsusilə ali təhsilin vəziyyəti məni daim maraqlandırmışdı və mən bu barədə xeyli məlumatlara malik idim... Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilib... Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum".

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

## *Medallı igidlərimiz*

# "Xoşbəxt vətəndaşam ki, Vətən müharibəsi iştirakçısıyam"

Hərbçi olmağı nə vaxtdan qərara aldığını xatırlaya bilmir. Yadında qalan budur ki, hərbçi olmaq istədiyini deyəndə heç kim etiraz etməyib. Sonralar marağının səmti duyulubmuş...

Goranboy rayonunun Qızılhacılı kəndində anadan olub. 2014-cü ildə C.Naxçıvanski adına Hərbi Liseyi, 2018-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) fərqlənmə diplomu ilə bitirib. Hərbi xidmətinə əməliyyat taborunda başlayıb. Tədris müddətində öyrəndiklərini, çöl çıxışlarında mənimsədiklərini hərbi xidməti üçün başlanğıc bilib...

İşğala son qoymaq üçün bütün hərbi qulluqçular kimi, o da Ali Baş Komandanın döyüş əmrini gözləyirdi. Döyüş əmri - müharibə torpaqlarımızın işğaldan azad edilməsi olacaqdı...

Azərbaycan Ordusu 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı birləşmələrinin hücumunun qarşısını qətiyyətlə aldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başlayanda baş leytenant Elşən Eminlinin xidmət etdiyi hərbi hissə də döyüşlərdəydi. Düşmənin işğal müddətində yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdirdiyi sədləri darmadağın edildi. Hücum müxtəlif istiqamətlərdən genişləndirildi.

Baş leytenant Elşən Eminlinin də daxil olduğu bölük Gülüstan kəndi uğrunda döyüşə qoşuldu. Düşmən ciddi müqavimət göstərdiyinə görə döyüşlər iki gün davam etdi. İşğalçılar geri çəkilməyə məcbur oldular. Sentyabrın 29-da Talış kəndi uğrunda döyüşlər başladı. Uçuq dağ istiqamətində döyüşənlərin bir hissəsi Ağuçuq adlandırılan yer uğrunda gedən döyüşlərə cəlb olundu. Ağuçuq uğrunda ağır döyüşlər gedirdi. Düşmən bu yüksəkliyi ciddiyyətiylə qoruyurdu. Bu yüksəklik Talış kəndinin taleyi idi; strateji yüksəklik olan Ağuçuq adlandırılan yer buna görə düşmənin də son dərəcə ciddi müqavimət göstərdiyi mövqe idi. Lakin Azərbaycan əsgəri bu yüksəkliyi də düşməndən təmizlədi...

Suqovuşan istiqamətində hücuma keçən qüvvələrin tərkibində baş leytenant Elşən Eminli də vardı. Suqovuşan istiqamətində yüksəklik uğrunda döyüşürdülər. Ağır döyüşlər gedirdi. Komandiri mayor Elsevər Axundov olan bölmə düşmənin ciddi müqavimət göstərdiyi səmtdə döyüşürdü. Döyüşçülərimiz ünvanlı atəş açırdılar, düşmən - pərakəndə. Bu pərakəndəliyin döyüşü uzatmaq üçün olduğunu duyurdular. Ona görə də düşmənə kömək gələnə kimi mövqeni nəzarətə götürməli idilər. Düşmənin mövqeləri öyrənilmişdi, indi mövqeyə gələn yolları nəzarətə götürməyi qərara aldılar. Döyüşü davam etdirməklə iki tərəfdən müşahidə-nəzarət yaradıldı. İki istiqamətli nəzarət qrupu yaradıldı. Komandirin əmri ilə atışı bir qədər azaltdılar. Düşmən buna aldandı - bütün imkanları ilə əks-hücuma keçməyə cəhd göstərdi. Bu, onun məğlubiyyətinin başlanğıcı oldu. Köməyi ləngiyən düşmən məhv edildi, mövqe ermənisizləşdirildi. Suqovuşana buradan hücum edəcəkdilər...



...Döyüş səngimirdi. Yorğun idilər. Yuxusuz idilər. Susamışdılar. Döyüşürdülər. Bu döyüş Azərbaycan Ordusunu Suqovuşana çatdırmalıydı. Düşmənə xeyli yaxınlaşıblarmış - güllə səsləri içində hərdən ermənilərin səslərini də eşidirdilər. Komandir bir qədər sağa meyillənməyi əmr etdi. Atışa-atışa sağa çəkildilər. Düşmən elə bildi ki, döyüşçülərimiz döyüşdən yayınır, geri çəkilirlər. Mövqelərindən bir qədər qabağa çıxdılar. Həmin anlarda Azərbaycan əsgərinin atışları ilə qarşılaşdılar. Gec idi. Geri çəkilməyə imkanları qalmamışdı, irəliləməyə cəsarətləri çatmırdı.

Hava qaralırdı. Bu anlarda döyüşçülərimizdən 100-120 addım aralıya bir mərmi düşdü. Bu da döyüşün gedişinə, Azərbaycan əsgərinin qələbəsinə mane ola bilmədi. Baş leytenant Elşən Eminli də döyüşə-döyüşə dağa çıxanların sırasındaydı; hücum buradan davam etdiriləcəkdi...

Ucalıqda dalğalanan bayrağımız döyüşçülərimizin qələbə ruhunun ifadəsiydi; hər mövqe qələbəsi, strateji əhəmiyyətli yüksəklik, yaşayış məntəqəsi Azərbaycan Ordusunu Böyük Qələbəyə yaxınlaşdırırdı.

Leytenant Samir Əliyev, əsgərlər Tehran Cəfərov, Vüsal İsgəndərov, Ruslan Əliyev şəhid olmuşdular. "Torpaqların işğaldan azad edilməsi üçün döyüşən əsgər bilməlidir ki, qazanılacaq qələbə şəhidlikdən keçir...", - komandirlərinin bu kəlamını unutmamışdılar, son döyüşəcən unutmayacaqdılar. Hər döyüşdə son döyüş ovqatıyla döyüşürdülər...

"Noyabrın 8-i günü Azərbaycan Ordusunun Zəfər günü kimi, Ermənistan ordusunun məğlubiyyət günü kimi tarixləşdi. Döyüşçülərimizin döyüş əzmini sözlə ifadə edə bilmərəm. Onların Qələbə ruhu yerə-göyə sığmırdı. Qazanılan Zəfər Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun döyüş bayrağı idi, ucalıqlarda qürurla dalğalanırdı. Onda əsgərlərdən birinin pıçıltıyla dediklərini heç zaman unutmayacam, unuda bilməyəcəm: Xoşbəxt vətəndaşam ki, Vətən müharibəsində döyüşdüm, Zəfər qazananların sırasında oldum...", - baş leytenant Elşən Eminli belə dedi və qürurla əsgərlərə baxdı...

Baş leytenant Elşən Eminli İkinci Qarabağ müharibəsində iştirakına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Bu qətiyyət, bu qürur Zəfər nişanəsidi



*Sübh çağıdır. Vətən müharibəsində zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində işğaldan azad olunmuş ərazilərdə yaradılmış komando hərbi hissəsindəyik. Zabitlər və əsgərlər gündəlik xidməti tapşırıqlarını yerinə yetirirlər. Hərbi hissə ucalıqlar qoynunda yerləşir, hava bir az soyuqdur. Dünəndən yağan yağış axşama yaxın dayanıb. Ağlı-qaralı buludlar uca dağların arxasına çəkilib. Gömgöy səma günəşin al-əlvan şəfəqlərinə bürünüb, üzümüzə gülümsəyir. Təbiətin əsrarəngiz mənzərəsini seyr etməkdən zövq alırıq. Belə gözəl bir məkanda xidmət etmək zabit və əsgərlərimiz üçün də olduqca xoşdur. Ruhən doğma sakinlərini qoynunda hiss edən torpağın da, daşın da üzü gülür.*

Gəlişimiz təlim vaxtına təsadüf etmişdi. Komandoların sıra yerişi, cəld-çevik hərəkətləri könlümüzə yatır. Zabit və əsgərlərin üzündən qürur, iftixar və məğlubedilməzlik hiss edilir. Komandolarımız növbəti təlim keçəcəklər. Onların təlimlərini izləmək, bacarıqlarını, hazırlıqlarını yaxından görmək bizə də qismət olacaq. Təlimin keçirilməsi üçün bölüklərdə ciddi hazırlıq işləri gedirdi.

Şəxsi heyətə əmr və tapşırıqlar verən mayor Gündüz Mirzəyev fərəh hissi ilə dedi ki, zabit və əsgərlərimizin döyüş hazırlığı yüksək səviyyədədir. Hərbi hissənin şəxsi heyəti İkinci Qarabağ müharibəsində iştirak edib. Buna görə də kifayət qədər döyüş təcrübələri var. Onlar təlimlərdə fəal iştirak edir, döyüş hazırlıqlarını daim artırırlar. Daha müasir döyüş vərdişlərinə yiyələnirlər. Zabit və əsgərlərimiz komando hərbi hissəsində xidmət etmələrindən qürur duyurlar. Onlar bu hərbi hissədə xidmətin mahiyyətini mərhələ-mərhələ öyrənirlər.

"Həyəcan" çağırışı verilir. Komandolar qısa müddət ərzində qərargahın qarşısında düzülürlər. Bölmə komandiri əsgərlərə tapşırıqlarını verir. Şəxsi heyət gizli şəkildə düşmənin ərazisinə keçməli və qarşılaşdığı bütün hədəfləri dəf etməli, baş verə biləcək təxribatların qarşısını almalıdır.

Təyin olunmuş əraziyə çatan kimi tapşırığın təyinatına uyğun olaraq zabit və əsgərlər təlimə başladılar. Kəşfiyyat qrupu qısa müddət ərzində şərti terrorçuların yerini müəyyənləşdirdi. Sonra onları məhv etmək üçün əməliyyat planı hazırlandı. Əlverişli an yaranan kimi komandolar "terrorçuları" məhv etmək üçün əməliyyata başladılar. Qısa müddətdə ətrafı atəş səsləri bürüdü. Şərti terrorçular təslim olmaq istəmir, ciddi müqavimət göstərirdilər. Komandolar bacarıqlarını səfərbər edərək verilən tapşırığı vaxtında yerinə yetirməyə çalışırdılar. Onların cəld hərəkətləri yüksək hazırlığın təsdiqidir. Komandolar da tapşırığı yerinə yetirməkdə çox qətiyyətlidirlər. "Terrorçuları" zərərsizləşdirmə ərəfəsində ətraf tüstü dumanında görünməz oldu. Atəş səsləri daha da gücləndi. Çox keçmədi ki, "terrorçular" zərərsizləşdirildi. Qarşıya qoyulan tapşırıq yüksək səviyyədə yerinə yetirildi...

Hərbçilərlə söhbət etdik. Söhbət zamanı öyrəndik ki, təlimdə iştirak edən komandoların hamısı İkinci Qarabağ müharibəsində cəsarətlə döyüşüblər. Döyüşlərdə ön sıralarda vuruşublar. Belə cəsur oğulların igidliyi sayəsində 30 ilə yaxın erməni tapdağında qalmış torpaqlarımız işğaldan azad olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rəşad Əliyev 2007-ci ildən ordumuzun sıralarındadır. Ötən müddət ərzində xeyli təcrübə toplayıb, ona təhkim olunmuş silahın sirlərini dərindən bilir, hədəfləri dəqiq vurur. Kiçik çavuş Rəşad Əliyev dedi ki, orduda xidmətə başladığım ilk günlərdən mən də torpaqlarımızın işğaldan azad olunmasında iştirak etmək istəyirdim. Vətən müharibəsi başladı. Müharibənin ilk günlərindən sonadək vuruşdum. İkinci Qarabağ müharibəsi ordumuzun böyük Zəfəri ilə başa çatdı. Torpaqlarımızı işğaldan azad etdik. Bu gün xidmətimi qalib ordunun qalib əsgəri kimi qürurla davam etdirirəm. Hazırda Vətən borcumu yeni yaradılmış komando hərbi hissəsində yerinə yetirirəm. Təlimlərdə təcrübəmizi daha da artırırıq. Yeni-yeni döyüş vərdişlərinə yiyələnirik. İnanırıq ki, qazandığımız bu döyüş təcrübəsi, yüksək hazırlıq bizi yeni-yeni uğurlara çatdıracaq.

- Komando hərbi hissəsində xidmət etməkdən qürur duyuram, - deyə gizir Şükür Əliyev söhbətimizə qoşuldu. - İkinci Qarabağ müharibəsində vuruşmuşam. Döyüşlərdə üzərimə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlmişəm. Döyüşlərdə iştiraklarıma görə bu gün çox qürurluyam. İndi komando hərbi hissəsində xidmət edirəm. Məsuliyyətim daha da artıb. Çünki komando olmaq hərbçidən daha çox cəldlik, çeviklik və yüksək döyüş hazırlığı tələb edir. Gördüyünüz kimi, biz bu yüksək hazırlığa yiyələnmək, onu daha da artırmaq üçün təlimlər keçirik. Hər gün məşqlərdə, təlimlərdə iştirak etməklə yeni döyüş vərdişlərinə yiyələnirik. Yaxşı bilirik ki, komandolar düşmənə daima qalib gələnlərdir, Vətən uğrunda əzmlə vuruşanlardır, xalqa qələbə sevinci yaşadanlardır. Bu gün növbəti təlimimizi keçdik, ərazidə gizlənmiş "terrorçuları" aşkar edib zərərsizləşdirdik. Əsgərlərimiz qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirdilər. Şərti terrorçuları itki vermədən, vaxtında yaxaladıq. Təlimlərimiz çox səmərəli keçir. Elə buna görə də müasir döyüş vərdişlərinin sirlərinə dərindən yiyələnirik. Hava şəraitindən asılı olmayaraq, təlimlərimiz, dərslərimiz təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq davam edir. Biz komandolar istənilən hava şəraitində qalib gəlməyə qadirik.







Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Səttar Şapıyev də İkinci Qarabağ müharibəsində iştirakından, keçdiyi döyüş yolundan danışdı. Qazandığı uğur və qələbələrdən geniş söhbət açdı. Onu da dedi ki, müharibədə qazandığımız zəfərin davamlı olmasını təmin etmək üçün yenə də təlim keçir, döyüş hazırlığımızı daha da yüksəldirik.

Zabit və əsgərlərlə söhbət edərkən onu da öyrəndik ki, döyüşlərdə göstərdikləri igidliyə və hünərə görə bu hərbçilərin hamısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə müxtəlif orden və medallara layiq görülüblər.

Təlim uğurla başa çatdı. Mayor Gündüz Mirzəyev şəxsi heyətin hazırlığından razı qaldığını bildirdi. Belə bacarıqlı, peşəkar hərbçilərlə yeni-yeni zəfərlər qazanacaqlarını dedi.

...Zabit və əsgərlərin üzündə yorğunluq hiss olunmurdu. Əksinə, komandoların çöhrələrindən sevinc oxunurdu, sözlərindən qələbə müjdəsi duyulurdu, hərəkətlərində zəfərin nişanələri vardı. Onlar xeyli məşq edib zəngin təcrübə qazandıqlarına görə belə dərslərə alışıblar, belə sınaqlara vərdiş ediblər. İnanırıq ki, komandoların çöhrələrindəki bu sevinc, sözlərindəki bu qələbə ovqatı, hərəkətlərindəki Zəfər nişanəsi onları heç vaxt tərk etməyəcək.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən tədbirlər həftəsinə start verilib

*Respublikamızın bütün bölgələrində olduğu kimi, Azərbaycan Ordusunun qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də "Heydər Əliyev İli" ilə bağlı tədbirlər həyata keçirilir.*



Tədbirlərdə Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin zəngin həyat yolu və həmişə fəxr etdiyi doğma Vətəni, Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətləri bir daha xatırlanır, geniş təbliğ olunur, bu gün də, gələcəkdə də nümunə qaynağı olan irsi dərindən öyrənilir.

21 yanvar 2023-cü ildə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən görkəmli sərkərdə, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunmuş vətənpərvərlik tədbirləri həftəsinə start verilib.

Təntənəli mərasim başlamazdan öncə Həzi Aslanovun mərkəzdə ucaldılan abidəsi ziyarət olunub və qarşısına qızılgül çələngi qoyulub, güllər düzülüb.

Nəzərə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyev 9 may 1994-cü ildə şəxsən bu abidənin açılışını edib, veteranların və gələcəyin zabitləri olacaq kursantların qarşısında geniş nitq söyləyərək deyib: "Hərbi peşə, zabitlik peşəsi, Vətəni müdafiə işi müqəddəsdir. İnsan həyatında çox peşələrlə məşğul ola bilər. Amma hər bir adam özünü hərbi işə, əsgəri işə, Vətəni müdafiə etmək işinə həsr edə bilməz. Bunu yalnız Vətənini həddindən artıq sevən, xalqına sadiq olan insanlar edə bilərlər. Mən sizi məhz bu cür görmək istəyirəm... Hər bir kursant Vətənimizi Həzi Aslanov kimi sevməli, hərbi peşəni Həzi Aslanov kimi mənimsəməlidir. Həzi Aslanov həm vətənpərvərliyinə, həm öz zəkasına, biliyinə görə, həm də hərbi peşəyə böyük hörmət və məhəbbətinə görə zabitlik peşəsini seçmiş, general səviyyəsinə yüksəlmiş və Qafqaz dağlarından Pribaltikaya qədər döyüşə-döyüşə getmiş, həlak olmuşdur. Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən, vuruşan Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir. O, bu döyüşlərdə həlak olmuş, ancaq öz vətəndaşlıq borcunu yerinə yetirmiş, Azərbaycan xalqının hansı yüksək mənəvi keyfiyyətlərə malik olduğunu dünyaya nümayiş etdirmişdir".





Abidə ziyarət olunduqdan sonra tədbir iştirakçıları görkəmli sərkərdə H.Aslanova həsr olunan fotosergi ilə tanış olublar.

Təlim və Tədris Mərkəzinin klubunda keçirilən mərasimi layihənin müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani açaraq xalqımızın qəhrəman oğlunun hər bir gənc üçün bu gün də örnək olan mənalı həyatı və döyüş yolu, eləcə də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qəhrəmanın adının əbədiləşdirilməsi sahəsində tarixi xidmətləri barədə ətraflı məlumat verib.



Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov tədbir iştirakçılarını salamlayaraq, "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən vətənpərvərlik tədbirləri həftəsinin proqramı ilə tədbir iştirakçılarını məlumatlandırıb. Bildirilib ki, "Heydər Əliyev İli" çərçivəsində keçirilən Həzi Aslanovun xatirəsinə həsr olunmuş xatirə həftəsi ərzində qəhrəmanın birinci Şəhidlər xiyabanındakı məzarı ziyarət olunacaq, Xətai rayonunda Həzi Aslanov qəsəbəsindəki büstü qarşısında xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları ilə qəhrəmanın ailə üzvlərinin görüşü keçiriləcək, Beyləqan rayonunda vaxtilə Həzi Aslanov adına sovxozun ərazisində ucaldılan, sonralar isə həmin ərazidə Azərbaycan əsgərlərinin iştirakı ilə salınmış parkdakı abidə qarşısında əsgərlərin, Vətən müharibəsi iştirakçısı olan tankçıların toplantısı təşkil olunacaq, yanvarın 24-də - H.Aslanovun həlak olduğu gün qəhrəmanın Lənkəran şəhərindəki ev muzeyində anım mərasimi keçiriləcək. General-mayor E.Xəlilov qeyd edib ki, Vətən müharibəsində möhtəşəm zəfərin qazanılmasında digər qoşun növləri ilə yanaşı, H.Aslanovun davamçıları olan Azərbaycan tankçılarının da müstəsna xidmətləri olub. Məhs Vətən müharibəsindən 9 ay öncə Azərbaycan Prezidenti cənab İlham Əliyevin Həzi Aslanovun 110 illik yubileyinin keçirilməsi haqqında Sərəncamı müharibə ərəfəsində Vətən müdafiəçilərinin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəldilməsinə zəmin yaradıb.

"Hər birimiz Həziyik, hər bir əmrə hazırıq" devizi altında keçirilən tədbirlərdə Azərbaycan əsgər və zabitləri söz verib, and içiblər ki, Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olacaq, respublikamızın ərazi bütövlüyünün bərpası, işğal edilən tarixi torpaqlarımızın azad edilməsi uğrunda canlarından və qanlarından da keçəcəklər.

Qeyd edilib ki, "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülən, yüksək döyüş orden və medalları ilə təltif olunan döyüşçülərimizin sıralarında əfsanəvi qəhrəman H.Aslanovun davamçıları olan tankçılar da yetərincədir.

General-mayor E.Xəlilov əmin olduğunu bildirib ki, bu tədbirlər də yüksək səviyyədə keçiriləcək və Azərbaycan Ordusunun şəxsi heyətinin vətənpərvərlik hissini daha da yüksəldəcəkdir.



General-mayor E.Xəlilov alqışlar altında "Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunmuş vətənpərvərlik tədbirləri həftəsini açıq elan edib.

Sonra Azərbaycan Ordusun şəxsi heyətinin döyüşən teatr kimi tanıdığı unudulmaz sənətkarlarımız, xalq artistləri Amaliya Pənahova və Yusif Muxtarovun 30 il öncə birgə yaratdıqları Bakı Bələdiyyə teatrı yaradıcı kollektivinin ifasında A.Qurbaninin "Həzi Aslanov xatirələr işığında" adlı pyesi əsasında hazırlanan tamaşadan parçalar nümayiş etdirilib.

Tamaşa tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Tamaşanın sonunda Bakı Bələdiyyə teatrı Azərbaycan Ordusunun şəxsi heyətinə göstərdiyi mədəni xidmətlərə görə Müdafiə Nazirliyinin fəxri fərmanı ilə təltif olunub.

Tamaşada H.Aslanovun şəxsi həkimi olmuş və onun haqqında, müəmmalı ölümü barədə ilk olaraq məlumat vermiş gürcü Baqiaşvilinin obrazını məharətlə canlandıran Əməkdar artist Tofiq Bayramova Müdafiə Nazirliyinin fəxri fərmanı və gül çələngi hədiyyə edilərək, anadan olmasının 80 illiyi münasibətilə Azərbaycan əsgərinin təbrikləri çatdırılıb.



Tədbirin sonunda igid sərkərdənin nəvəsi polis polkovnik-leytenantı Emin Aslanov Ulu Öndər Heydər Əliyevin daim qəhrəmanın ailəsinə diqqət və qayğı göstərdiyini yada salıb, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə ali diqqət üçün Aslanovlar ailəsi adından minnətdarlıq edib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Görkəmli sərkərdə Həzi Aslanovun 113 illiyi qeyd olunub



Öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə tariximizə sonsuz ehtiram və məhəbbətlə yanaşmış, əsrlər boyu yadelli işğalçıların qarşısında boyun əyməyən, diz çökməyən xalq qəhrəmanlarımızın hünər və rəşadətlərini yüksək qiymətləndirmiş, yeni nəslin hərbi vətənpərvərlik tərbiyəsində ata-babaların, əcdadların qəhrəmanlıq ənənələrindən bəhrələnməyi, bu ənənələri şərəflə, vicdanla davam etdirməyi məsləhət görmüşdür. Dünyaşöhrətli dövlət xadimi Heydər Əliyevə görə xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən yeni qəhrəmanlar yetişdirə bilməz. Gələcək qəhrəmanlıqların, igidliklərin təməli tariximizdədir, atalarımızın keçdiyi şanlı döyüş yolundadır. Hər bir xalq bu yolu keçib. Əgər bu gün hansı bir xalq tarix səhifəsindədirsə, deməli, onun tarixi inkişafında, xalq kimi formalaşmasında özünəməxsus qəhrəmanlıq nümunələri olmuşdur.

Ulu Öndər Azərbaycan sərkərdələri ilə həmişə fəxr etmiş, onların şücaətlərindən qürur duymuşdur. Böyük iftixar hissi keçirmişdir ki, mənsub olduğu xalq dünya sərkərdələrinə, fatehlərinə meydan oxuya biləcək böyük şəxsiyyətlər, igid sərkərdələr yetişdirmişdir.

"Bu, xalqımızın tarixidir. Xalqımızın tarixini heç kim dəyişə bilməz, heç kəsin də haqqı yoxdur ki, tarixdən kimisə silsin, çıxarsın, kimisə salsın... Tarix tarixdir və 1941-1945-ci illər müharibəsi Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur. Xalqımızın tarixinin parlaq səhifələrindəndir. Biz bunları böyük hörmət və ehtiramla xatırlamalıyıq", - deyən Dahi Lider Heydər Əliyev keçən əsrin sonlarında tariximizin bu səhifələrinə kölgə salmaq istəyənlərə tutarlı cavab verərək İkinci Dünya müharibəsində iştirak edən xalqımızın igid oğullarının üstündən qara xətt çəkmək istəyənlərə layiqli dərs vermişdir.

Ulu Öndərin sevimli qəhrəmanlarından birincisi xalqımızın şanlı oğlu, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanov idi. O vaxtlar Heydər Əliyev deyirdi ki, Həzi Aslanov öz qəhrəmanlıq və cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə general, həm də vətənpərvər bir insan. Vətəninə sədaqətlə son nəfəsinədək döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Müdafiə Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən igid sərkərdə Həzi Aslanovun xatirəsinə həsr olunmuş vətənpərvərlik tədbirləri həftəsinin proqramına əsasən Birinci Şəhidlər xiyabanında mənalı həyatı və döyüş yolu, eləcə də hərb elminə verdiyi yeniliklər ilə



bu gün də aktual olan unudulmaz generalımızın məzarı qarşısında onun 113-cü doğum günü münasibətilə keçirilən mərasimdə səsləndirilib.

Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunun, Bakı Qarnizonundakı hərbi hissələrin, xüsusi təyinatlı təhsil müəssisələrinin, veteran təşkilatlarının, ictimaiyyət nümayəndələrinin, generalın ailə üzvlərinin, sənət adamlarının və məktəblilərin iştirak etdiyi mərasimdə əvvəlcə fəxri qarovulun müşayiəti ilə məzarüstü abidə önünə Müdafiə Nazirliyi və Aslanovlar ailəsi adından əklillər qoyulub, güllər düzülüb və Ulu Öndərin sevimli qəhrəmanlarından olan xalqımızın igid oğlunun timsalında Vətənimizin şəhid övladlarının xatirəsi ehtiramla yad edilib.

Layihənin və Həzi Aslanov haqqında bir neçə kitabın müəllifi, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani qeyd edib ki, 2023-cü il mayın 10-da anadan olmasının 100 illiyini dövlət səviyyəsində qeyd edəcəyimiz Heydər Əliyev Azərbaycanın sovet dövrü qəhrəmanlarından danışarkən Həzi Aslanovun adını həmişə önə çəkərdi. Unudulmaz qəhrəmanın bütün həyat və döyüş yolu, hətta müəmmalı ölümü barədə də dahi rəhbərin geniş məlumatları var idi. Heydər Əliyev generalın həyat yolu, qəhrəmanlığı və İkinci Dünya müharibəsində xidmətlərini bütün Azərbaycan gənclərinə nümunə göstərərdi. Bu, müstəqillik dövründə Ermənistan silahlı qüvvələri tərəfindən respublikamıza təcavüz olunduğu bir vaxtda Azərbaycan xalqı üçün, ordumuz üçün, gənclərimiz üçün böyük nümunədir deyərdi.

Ulu Öndər Heydər Əliyev gələcək zabitlərin Həzi Aslanova bənzəmələrini istərdi. Onların da Həzi Aslanov kimi Vətəni sevmələrini, hərbi peşələri mənimsəmələrini arzulayardı. Heydər Əliyev onu da xatırlayardı ki, vaxtilə Stalinqradda müharibəyə həsr olunmuş abidəni ziyarət edərkən orada adları qızıl hərflərlə yazılmış Sovet İttifaqı Qəhrəmanlarının arasında Həzi Aslanovun adını iftixarla oxumuş, hələ o vaxt ürəyi dağa dönmüş, fəxr etmiş və ətrafında olan adamlara sevinclə bildirmişdir ki, baxın, bu abidədə Azərbaycan oğlunun da adı var.

Nəzərə çatdırılıb ki, ötən əsrin 70-ci illərindən başlayaraq görkəmli dövlət xadimi Heydər Əliyevin iştirakı ilə Azərbaycanda hər il 9 may günü igid sərkərdənin məzarı ziyarət olunar, qarşısına əklil qoyular və buradan Qələbə günü tədbirlərinə start verilərdi. O vaxtlar Heydər Əliyev Sovetlər İttifaqının müxtəlif respublikalarında yaşayan tanınmış marşal və generalları da bu tədbirlərə dəvət edərdi.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən Vətən müharibəsi iştirakçısı polkovnik Elşad Əbilov Ulu Öndər Heydər Əliyevdən miras qalan qəhrəmanlıq ənənələrinin təbliği işinin bu gün də respublikamızda uğurla davam etdirildiyini məmnuniyyət hissi ilə bildirib.

Polkovnik E.Əbilov deyib: "44 günlük Vətən müharibəsindən 9 ay öncə Həzi Aslanovun anadan olmasının 110 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncam verməsi heç də təsadüfi deyildi. Həmin Sərəncamda qeyd edilirdi ki, xalqımızın igid oğulları sırasında general Həzi Aslanovun qəhrəmanlıq rəmzinə çevrilmiş adı dərin ehtiramla çəkilir. Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir. Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində Həzi Aslanovun anadan olmasının 110 illiyi ilə bağlı keçirilən bir-birindən maraqlı vətənpərvərlik tədbirləri Vətən müharibəsi dövründə öz bəhrəsini verdi. Azərbaycan tankçıları "Hər birimiz Həziyik, hər bir əmrə hazırıq!" deyə, hətta tankların üzərinə "Həzi Aslanov" yazaraq döyüş meydanına atıldılar. Düşmən istehkamlarını yararaq ruhumuzun paytaxtı Şuşa şəhərinə doğru irəlilədilər. İndi "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülən, yüksək döyüş orden və medalları ilə təltif olunan neçə-neçə igid tankçımız var".



Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, Birinci Qarabağ müharibəsinin iştirakçısı ehtiyatda olan polkovnik Əzizağa Qənizadə diqqətə çatdırıb ki, o hələ Bakı Ümumqoşun Komandanlığı Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alarkən məktəblərində Həzi Aslanova həsr olunan xüsusi guşə var idi. Həzi Aslanovun xatirə əşyaları, o cümlədən çarpayısı da qorunub saxlanardı. Hər gün şəxsi heyətin yoxlanışı zamanı ilk olaraq Həzi Aslanovun adı çəkilər və onun müharibədə qəhrəmanlıqla həlak olduğu cavabı verilərdi. Ayrı-ayrı xalqların nümayəndələrindən olan kursantlar azərbaycanlılara həsəd aparardılar ki, onların belə bir qəhrəmanı var.

Vətən müharibəsi iştirakçısı olan, tankçılar adından çıxış edən gizir Şamil Zeynalov "Bu gün Azərbaycan Ordusunda yüzlərlə, minlərlə Həzi Aslanovun davamçıları var və onlar Müzəffər Ali Baş Komandanın əmrinə hazırdırlar", - deyib.

Bakı Bələdiyyə Teatrının aparıcı aktyorlarından olan, Həzi Aslanov obrazının mahir ifaçısı İlqar Musayev belə bir şanlı qəhrəmanın obrazını canlandırdığından qürur duyduğunu qeyd edib.

Babasının ad və soyadını şərəflə daşıyan, Birinci Qarabağ müharibəsi iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli polis general-mayoru Həzi Aslanov Ulu Öndərlə bağlı xatirələrini bölüşüb. Hələ uşaq yaşlarından bu abidə qarşısında dəfələrlə dahi rəhbərlə görüşlərini xatırlayıb. Həmişə olduğu kimi, yenə də xalqımızın böyük oğlu Heydər Əliyevi minnətdarlıqla yada salıb, Aslanovlar ailəsinə dayaq olduğunu bildirib. Polis general-mayoru H.Aslanov deyib: "Həmişə qədirbilən xalqımızdan və dövlət rəhbərlərimizdən böyük diqqət görmüşük. Ancaq Ümummilli Liderin Həzi Aslanova və onun şəxsiyyətinə, qəhrəmanlığına münasibəti bambaşqa idi. Bu gün də möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevdən də bu diqqəti görür və çox yüksək dəyərləndiririk. Pandemiyanın tüğyan etdiyi bir vaxtda Ulu Öndərimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezident İlham Əliyevin Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə babamızın məzarını ziyarət etməsini unutmaqmı olar?! Yaxud da keçən il yağışlı bir may səhərində Müzəffər Ali Baş Komandanımızın bu müqəddəs məkana gələrək Həzi Aslanovun məzarını ziyarət etməsi, önünə gül dəstəsi qoyması, xatirəsini ehtiramla yad etməsi təkcə bizim babamıza deyil, eyni zamanda, İkinci Dünya müharibəsində həlak olan, müharibədən qayıdıb sonralar vəfat edən qəhrəman ata-babalarımızın xatirəsinə hörmətdir. Hörmətin, ehtiramın təcəssümüdür. Aslanovlar ailəsi bundan sonra da Heydər Əliyev ideyalarına həmişə sadiq qalacaq, möhtərəm Prezidentimizin rəhbərliyi altında Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, göstərilən ali, yüksək etimadı nümunəvi xidmətləri ilə doğruldacaqlar".

Qəhrəmanlığın rəmzinə çevrilən Həzi Aslanovun ad günü münasibətilə keçirilən mərasimində görkəmli sərkərdənin nəvələri tədbir iştirakçılarının suallarını cavablandırıb, onlarla səmimi söhbət edib, məktəblilər vətənpərvərlik şeirləri söyləyiblər.

Xətai rayonu Həzi Aslanov qəsəbəsində general Həzi Aslanovun abidəsi də ziyarət olunub. Qəhrəmanın abidəsi qarşısında Azərbaycan Ordusunun zabit və kursantları Həzi Aslanovun nəvələri polis general-mayoru Həzi Aslanov və polis polkovnik-leytenantı Emin Aslanov ilə görüşüb, onların xatirələrini maraqla dinləyiblər.

"Heydər Əliyev İli" çərçivəsində "Ulu Öndərin sevimli qəhrəmanları" silsiləsindən görkəmli sərkərdə Həzi Aslanovun xatirəsinə həsr olunmuş vətənpərvərlik tədbirləri həftəsi davam edir.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

**Mövzu:** Erməni terrorizmi. Ermənistanın Azərbaycana qarşı təcavüzü

**Suallar:**

**1. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni ekstremizmi. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin yaranma tarixi.**

## Ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda, tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə aldıqları yüksək mənsəblər, yeni-yeni ərazilər, var-dövlət olmuşdur.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

1890-cı ildə "Daşnaksütyun" partiyasını yaratmaqla mənfur niyyətlərinə start verən ermənilər "yazıq millət" pərdəsi arxasında Qafqazda, Türkiyədə və dünyanın müxtəlif ölkələrində ən qanlı hadisələrə, terrora, qırğınlara imza atmışlar. Azərbaycan xalqına qarşı ərazi iddiaları, soyqırımı və deportasiya siyasəti də planlaşdırılmış ssenari üzrə tarix boyu mərhələlərlə davam etmişdir. XIX əsrin sonlarında XX əsrin əvvəllərində, xüsusən 1905-1907-ci, 1915-1920-ci illərdə Bakıda, bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin çirkin və məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı, eyni zamanda, Azərbaycana qarşı ərazi iddialarının siyasətinin ilkin mərhələləri idi.

1917-ci ildə çar Rusiyasında baş vermiş Oktyabr inqilabı nəticəsində, milliyyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısında idi, əslində, həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və "Daşnaksütyun"dan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırımı nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca, İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv.km-dən 29,8 min kv.km-ə çatdırılmışdır.

Ermənilərin Qərbi Azərbaycanda və Qarabağda məskunlaşması tarixinə nəzər salaq:

Səfəvilərin vaxtında Azərbaycan inzibati-ərazi quruluşuna görə bəylərbəyliklərə bölünmüşdü. İndiki Ermənistanın ərazisi, Naxçıvan da daxil olmaqla, Çuxur Sədd bəylərbəyliyi adlanırdı. Çuxur Sədd bəylərbəyliyinin mərkəzi İrəvan qalası səkkiz yüz evdən ibarət olmuş və burada ancaq səfəvilər (yəni azərbaycanlılar) yaşamışdılar.

1736-cı ildə Nadir şah Azərbaycanda mövcud olmuş inzibati-ərazi quruluşunu - bəylərbəylikləri (Qarabağ, Şirvan, Təbriz və Çuxur Sədd) ləğv etdi və həmin ərazilərdən ibarət mərkəzi Təbriz şəhəri olmaqla Azərbaycan vilayətini yaratdı. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Azərbaycanın ərazisində müstəqil xanlıqlar, o cümlədən İrəvan xanlığı yarandı.

1804-1813-cü illərdə çar Rusiyası ilə Qacarlar (İran) dövləti arasındakı müharibə Gülüstan müqaviləsinə əsasən Azərbaycan ərazisinin əksər hissəsinin, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən İrəvan və Naxçıvan xanlıqları da (Azərbaycan dövlətinin 210 min kv.km ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) çar Rusiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə çar Rusiyası arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə, Ədirnə sülh müqaviləsi bağlanıldı. Tükmənçay müqaviləsinə görə 40 000 ermənini, Ədirnə müqaviləsinə görə isə 90 000 erməninin İran və Anadoludan Tiflis, İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi razılaşdırılmışdı və bununla da ermənilərin Azərbaycan torpaqlarına kütləvi yerləşdirilməsi əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi və yerli əhalinin sıxışdırılması prosesinə başlanıldı.

Ermənilərin havadarları tərəfindən Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasəti sonralar da kütləvi şəkildə aparılmaqda davam etmişdi. Statistik göstəricilərə görə, yalnız 1828-1920-ci illər arasında Azərbaycana 560 000 erməni köçürülmüşdür.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra yaradılan Azərbaycan Ordusu köməyə gələn türk qoşunlarının köməyi ilə erməni silahlı birləşmələrinə qarşı bir sıra uğurlu əməliyyatlar apararaq azərbaycanlıların kütləvi qırğınının qarşısını ala bildilər. Lakin türk qoşunları Azərbaycanı tərk etdikdən və Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut etdikdən sonra Ermənistan rus bolşeviklərinin dəstəyi ilə 1921-ci ildə Azərbaycanın Zəngəzur bölgəsini ələ keçirə bildi.

Azərbaycan xalqı sovet imperiyasının tərkibində də terrora, kütləvi qırğınlara, deportasiyalara məruz qalmışdır. SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarı ilə 1948-1953-cü illərdə 150 min azərbaycanlı ilk baxışda görünməyən soyqırımına - deportasiyaya məruz qalmış, öz tarixi vətənindən zorla köçürülərək Azərbaycan Respublikasının ərazisində yerləşdirilmişdir. Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu əhatə etmiş və azərbaycanlıların yaşadıqları ərazilərdə həyata keçirilmişdi.

## XX əsrin axırlarında erməni ekstremizmi. Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin yaranma tarixi

Sovet hakimiyyəti illərində öz məkrli niyyətlərini gizlədən ermənilər ermənipərəst Mixail Qorbaçovun (1985-1991-ci illərdə SSRİ rəhbəri olmuşdur) SSRİ rəhbərliyinə gəlişindən sonra fəal hərəkətlərə keçdilər. 1985-ci ilin dekabrında ABŞ-dakı erməni inqilabı federasiyası (daşnak partiyası) və erməni milli komitəsi Birləşmiş Ermənistan yaratmağı özlərinin strateji vəzifəsi elan etdi. "Birləşmiş Ermənistan" Naxçıvanı, Qarabağı və Gürcüstanın tərkibində olan Axalkalakini də özündə birləşdirməli idi. Mixail Qorbaçovun milli siyasət sahəsində buraxdığı kobud səhvlərə qarşı öz etirazını bildirməklə ermənilərin planlarının həyata keçməsinə mane olan görkəmli dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1987-ci ilin oktyabrında SSRİ rəhbərliyindən uzaqlaşdırıldıqdan dərhal sonra, 1987-ci ilin noyabrında Qarabağda yaşayan ermənilər öz separatçı tələblərini irəli sürdürərək Azərbaycan Respublikası ərazisində "ikinci erməni" dövlətini yaratmağa cəhd göstərdilər.

1988-ci ildə ermənilər Azərbaycana qarşı torpaq iddialarıyla ekstremist çıxışlara başladılar.

1988-ci ilin iyununda erməni dəstələri azərbaycanlılar yaşayan Zəngibasar vilayətinin Uluxanlı qəsəbəsinə (Masis rayonu) və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqınlar etdilər. Uluxanlı qəsəbəsində müdafiəsiz qalmış 3 mindən çox azərbaycanlı evlərindən çıxarılmışdı. Həmin ilin noyabr-dekabr aylarında Ermənistan SSR-nin azərbaycanlı əhalisi yaşayan kəndlərə ərzağın göndərilməməsi, elektrik xətlərinin kəsilməsi, kəndlərə silahlı basqınlar edilməsi kimi səbəblərdən soydaşlarıımız öz tarixi Vətənindən qaçqın düşməyə məcbur edildi. Moskvanın ermənilərə arxa durması nəticəsində 1988-89-cu illərdə indiki Ermənistan ərazisində azərbaycanlıların yaşadıqları 170 təmiz və 94 qarışıq yaşayış məntəqəsi boşaldıldı. Ermənistanın Mehri rayonunda qalmış axırıncı azərbaycanlı kəndi Nüvədi 1991-ci il avqustun 8-də boşaldıldı. Ümumiyyətlə, Ermənistandan 200 mindən artıq azərbaycanlı tarixi-etnik torpaqlarından qovuldu. Ermənistan SSR-nin rəhbərliyi azərbaycanlıların deportasiyasını başa çatdırdıqdan sonra Ermənistan Respublikası Ali Sovetinin qərarı ilə 90 türk mənşəli yaşayış məntəqəsinin adı dəyişdirildi.

Əsrin əvvəllərində olduğu kimi, sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycan Respublikasının Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis-Ayrım kəndinin, Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı, Ağdaban, Ballıqaya kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Bütün dünya bir sadə həqiqəti anlamaq istəmirdi ki, ermənilərin qərəzli, məkrli planlarını həyata keçirərək Qarabağda 120 000 erməninin monoetnik, daha sərbəst və "ərköyün" yaşaması üçün 1 200 000 azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşmüşdü, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfərdən çox azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Dünyanın böyük hissəsi bu qlobal miqyaslı faciəyə və ədalətsizliyə laqeyd qaldı. Lakin Azərbaycan dövləti və xalqı bu faciələrə və çətinliklərə rəğmən, ayaq üstə durmaqda davam etdi və bütün sahələrdə inkişaf yolunu tutdu.

İşğalçı Ermənistan dövləti törətdiyi əməllərə görə cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmaq qərarına gəldi. Bu məqsədlə 2016-cı ilin aprel, 2020-ci ilin isə iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törətdi. Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan yararlanaraq, təcavüzkarı sülhə məcbur etmək, torpaqlarımızın işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başladı.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün çəkən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək, dünya hərb tarixinə yeni şanlı səhifələr yazdı. Azərbaycan dövlətinin və Azərbaycan xalqının apardığı çoxillik mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev hələ döyüşlərin qızğın vaxtında Azərbaycan Ordusunun güc-qüdrətinin belə yüksək səviyyəyə çatmasının təsadüfi olmadığını xüsusi vurğulayaraq deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir...".

Bu gün artıq "Dağlıq Qarabağ" yoxdur, onun əvəzində Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu varsa, deməli, Qərbi Zəngəzur da olacaq, çünki bu tarixi zərurətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gələcək üçün doktrina ortaya qoyur və xalq-ordu birliyi ilə azərbaycanlıların öz dədə-baba torpaqlarına dönüşünü tarixi missiya kimi tamamlayacaqdır.

2022-ci ildə Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərində erməni terror-təxribat silahlı dəstələrinə qarşı keçirilən Fərrux və "Qisas" əməliyyatları şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını, yüksək vətənpərvərliyini, dövlətə sədaqətini, ordumuzun gücünü Ermənistan və onun havadarlarına, həmçinin bütün dünyaya göstərdi. Bu gün Azərbaycan Ordusunun qarşısında respublikanın suverenliyini, ərazi bütövlüyünü və dövlətçiliyin müdafiəsini ayıq-sayıq qorumaq vəzifəsi durur. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla, Azərbaycan Ordusunun qüdrətini daha da artıraraq Azərbaycan xalqının əzəli torpaqlarında sülh şəraitində yaşamasını təmin edəcəkdir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Tarix yazan oğullar

# Bir ömrün payızı



Yollar, istiqamətlər fərqlidir. Hər kəsin doğulub boya-başa çatdığı, yaşadığı ünvan, eləcə də hər kəsin fərqli arzuları, istəkləri var. Kimsə bir-birinə bənzəməz. Amma bu həyatda elə dəyərlər var ki, o dəyərlər insanları özündə bir yumruq kimi birləşdirər.

Babək rayonu Nehrəm qəsəbəsi tarixi yaşayış məntəqələrindən biridir. Bu tarixi torpağın sakinləri hələ 1918-ci ildə ermənilərin yaxşıca dərsini verib, elə gəldikləri yerə də yola salıblar. Silah-sursat cəhətdən zəif olsalar da, nehrəmlilər hünərləri, qeyrətləri və camaatın birliyi sayəsində məlun Andranikin ayağının Nehrəmə dəyməsinə yol verməyiblər və ermənilər Yaycıda törətdiyi soyqırımı siyasətini burada həyata keçirə bilməyiblər.

Bugünkü yazımızın qəhrəmanı Ümüd Niftəliyev 20 oktyabr 1998-ci ildə Nehrəmdə dünyaya göz açmışdır. 1918-ci ilin hadisələrindən illər ötsə də, ermənilərin torpaq iddiası bitməmiş, "böyük Ermənistan" yaratmaq xülyasından əl çəkməmişdilər. Torpaqlarımız işğal altında idi. Qarabağ Ümüdün yaşadığı Nehrəm qəsəbəsindən çox-çox uzaqlarda idi. Ümüd oxuduğu Nehrəmə qonşu olan Araz kənd tam orta məktəbində fəal şagirdlərdən sayılırdı. O, yaxşı müəllim, həkim, mühəndis ola bilərdi. Amma Ümüd artıq öz yolunu seçmişdi. Bu yoldan onu heç bir qüvvə döndərə bilməzdi. Sənədlərini Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseyə verir və məqsədinə çatır. Yüksək balla liseyə qəbul olur.

Anası Fizzə xanım deyir ki, zəif olduğuna görə hərbçi olmağını istəmirdim. Həmin vaxt ağlıma da gəlməzdi ki, bu cansız, zəif uşaq böyüyüb qəhrəman olacaq, Qarabağ uğrunda, torpaq yolunda canın verəcək. Demək insan peşəsini sevirsə, o yolda qalib olmağı da bacarır. Atası Oruc Niftəliyev oğlundan qürurla bəhs edir: "Ümüd ailəmizin ikinci övladı idi. Liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) motoatıcı ixtisası üzrə təhsilini davam etdirib. Müharibə başlayanda sentyabrın 29-u Ümüd mənə zəng vurdu ki, ata, evdəkilərə bildirmə, mən də gedirəm. Nigaran qalsam da, xeyir-duamı verdim. Oğul düşmən çəpəridir. Bizə ancaq onlara dayaq durmaq düşər". Leytenant Ümüd Niftəliyev Füzuli, Cəbrayıl istiqamətlərində gedən döyüşlərdə iştirak edir. Son döyüş yeri Şuşada olur. Leytenant ailəsinə xoş müjdəli bir savaşdan pay verir. Zəfərdə payı olan Ümüd Niftəliyev "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilir. Qəhrəman döyüşçü təhsilinə davam edir. 2021-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vuran Ümüd Naxçıvana ailəsini görməyə gəlir. Bacısı İlkanə deyir ki, yoldaşlarının şəhid olması ona çox pis təsir eləmişdi. "Burada olarkən tez-tez şəhid məzarlarını ziyarətə gedərdi. Kəndimiz Birinci və İkinci Qarabağ müharibəsində 13 şəhid verib. Şəhidlərdən biri Məmmədov qardaşımın yaxın dostu idi. Onun itkisini Ümüd qəbul edə bilmirdi".

2021-ci ilin oktyabrından leytenant Ümüd Niftəliyev Laçında xidmətini davam etdirir. Anası Fizzə xanım deyir ki, bizimlə tez-tez əlaqə saxlayardı. Amma noyabrda zəngləri azalmışdı, nigaran qalırdıq. Noyabrın 15-i son danışığımız oldu. Dedi ki, bir az baş qarışıqdı, məndən nigaran qalmayın, özünüzdən muğayat olun.



2021-ci il noyabrın 16-da Kəlbəcər və Laçın rayonları ərazisində Ermənistan silahlı qüvvələrinin təxribatlarının və hücumlarının qarşısını alarkən Azərbaycan Ordusunun şəhid olan 7 hərbi qulluqçusundan biri leytenant Ümüd Niftəliyev olur. Doğulduğu torpaqda son mənzilə yola salınır. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif olunan Ümüdün gedişi hər kəsin qəlbində bir daha əminlik hissi yaradır. Hər kəs əmin olur ki, bundan sonra da can, qan bahasına olsa belə, düşmənin istənilən təxribatının qarşısı qətiyyətlə alınacaq, sərhədlərimiz etibarlı şəkildə qorunacaqdır.

Ümüdü son mənzilə yola salanlar arasında həmin vaxt hərbi xidmətdə olan qardaşı Sərxan da olur. Qardaşının itkisi Sərxan üçün ağır olsa da, həm qardaş kimi, həm bir əsgər kimi qürur duyur. Vətən müharibəsindən qəhrəman kimi dönən qardaşı ordu sıralarında şərəflə xidmət etmiş, düşmənin qabağından geri çəkilməmiş, Vətən yolunda canını fəda edərək daha ali məqama-şəhidlik məqamına yüksəlmişdi. Bu gün Sərxan hərbi xidmətini başa vuraraq evinə qayıdıb: "Ümüd arzusuna çatdı, torpaqlarımız işğaldan azad oldu. Ümüd yoxdursa, mən varam, hər an Vətənin müdafiəsinə hazıram".

Qapının girişində Oruc kişi Ümüdün adına bulaq tikdirib. Deyir ki, şəhid unudulanda ölür. Qoy yoldan keçənlər bu sudan içib, şəhidimi ansınlar, ruhuna dualar etsinlər. Ümüd heç vaxt unudulmasın.

Ümüd bir payız günü dünyaya göz açıb. Bir payız günü də bu dünyayla vidalaşdı, əbədiyyətə qovuşdu. Payız ilin elə bir vədəsidir ki, yarpaq tökümü başlayır, təbiət donunu dəyişir, havalar soyuyur, insanların canına bir üşütmə gəlir. Lakin 2020-nin payızı qəlbimizə, ruhumuza elə bir istilik, elə bir zəfər sevinci bəxş etdi ki... O zamandan payız başqa payızdır, yağışlı, çiskinli, küləkli deyil, həm də qələbə ətirlidir, zəfər müjdəlidir, gələcəyə ümiddir. Nə qədər ki, məğrur xalqımız, yenilməz ordumuz var, Ümüdlər də hər zaman var olacaqdır!

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**

Nümunəvi xidmət

# "Vətənin hər qarış torpağı üçün döyüşmək qürurvericidir"

Neçə illər idi ki, Azərbaycanın ayrılmaz hissəsi olan doğma Qarabağın işğalı dövründə Vətənini, xalqını, torpağını sevən hər bir azərbaycanlının ürəyində bir hüzn və kədər vardı. Hər dəfə "cəbhə xəttində atəşkəs yenə pozuldu" xəbərlərini eşitdikcə səbirlər tarıma çəkilirdi. 2020-ci il sentyabrın 27-də yenə də qarşı tərəf genişmiqyaslı təxribata əl atdı. Mövqelərimizə hücuma keçən mənfur düşmənə "Dayan!" deməyin zamanı gəlmişdi. Ali Baş Komandanın əks-hücum əmri verməsi ilə ordu və xalq onun ətrafında sıx birləşdi. Hər kəs bilirdi ki, döyüş meydanında qisas almağın vaxtıdı. Tək istək, bir amal var idi - doğma torpaqlarımızı işğaldan azad etmək. İstəyi və amalı bir olan igid oğulların şücaəti ilə torpaqların azad olunmasına nail olundu. Vətən uğrunda döyüşən belə oğullardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş çavuş Murad Məhərrəmovdur.



Murad əslən Ağdam rayonundandır. Lakin doğma yurd-yuvalarını görmək qismət olmamışdı. Tale elə gətirdi ki, bir hərbçi kimi məhz Ağdam istiqamətində gedən döyüşlərin iştirakçısı oldu. Vətən müharibəsində göstərdiyi şücaətə görə döyüşlərdən sonra o, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" və müdafiə nazirinin müvafiq əmri ilə "Hərbi xidmətdə fərqlənməyə görə 3-cü dərəcəli" medalları ilə təltif olunub.

"Vətənin hər qarış torpağı üçün döyüşmək qürurdur. Valideynlərimin doğulub yaşadığı Ağdamın azadlığı uğrunda döyüşmək isə ikiqat qürurverici idi", - deyə Murad Məhərrəmov söhbətə başladı. "Əks-hücum əmri veriləndə çox sevindik. Top komandiri olaraq mən və tabeliyimdə olan heyət verilən hədəfləri tez bir zamanda məhv etdik. Düşmənin artilleriya və minaatan qurğularını, canlı qüvvəsini dəqiq zərbələrlə darmadağın etməyi bacardıq. Kəşfiyyat məlumatları əsasında atdığımız mərmilərin dəqiq hədəfə dəyməsini öyrəndikcə sevincimiz yerə-görə sığmırdı.

Bu gün Qarabağımız tam azaddır. Şanlı üçrəngli bayrağımız illərdir həsrətini çəkdiyimiz doğma torpaqlarımızda dalğalanır. Hərbçilərimiz Şuşada, Kəlbəcərdə, Ağdamda, Zəngilanda və digər azad olunan bölgələrdə şərəflə xidmətlərini davam etdirirlər. Mən də güclü Azərbaycan Ordusunun fərdi olaraq ata-baba yurdum olan Ağdamda xidmətimi davam etdirdiyim üçün qürurluyam".

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə İŞİD liderlərindən biri saxlanılıb



Türkiyə xüsusi xidmət orqanları İŞİD terror təşkilatının liderlərindən birini saxlayıb.

Anadolu Agentliyi bu barədə məlumat yayıb.

Bildirilib ki, əməliyyat Qaziantep şəhərində keçirilib. Saxlanılan şəxs Suriyanın Rakka şəhərində "İŞİD təhlükəsizlik xidməti"nə rəhbərlik edib.

Məhkəmənin qərarı ilə terrorçu həbs edilib.

## Ukrayna Britaniyadan "Sea King" helikopterlərini qəbul etdiyini açıqlayıb



Ukrayna Silahlı Qüvvələri Böyük Britaniyanın "Sea King" xilasedici helikopterini qəbul edib.

Ukrayna Müdafiə Nazirliyinin teleqram kanalında bu barədə bildirilib.

"Böyük Britaniyadan olan "Sea King" Ukraynanın Qara dəniz sahilindəki yeni krallığına gəlib", - deyə müdafiə naziri Aleksey Reznikov bildirib.

## Burkina-Faso hökuməti Fransadan ordusunu çıxarmağı tələb edib



Burkina-Faso hökuməti Fransadan ordusunu bir ay ərzində ölkədən çıxarmağı tələb edib.

Burkina Xəbər Agentliyi bu barədə məlumat yayıb.

Bildirilib ki, hökumət ötən çərşənbə günü Fransanın ölkədəki hərbi mövcudluğunu tənzimləyən 2018-ci ilin 17 dekabr tarixli sazişi ləğv edib.

Qeyd edək ki, yanvarın 20-də Uqaduquda ölkədə Fransa qoşunlarının mövcudluğuna qarşı nümayiş keçirilib.

## Almaniya Polşanın Ukraynaya "Leopard 2" tanklarını göndərməsinə mane olmayacaq



Polşa Almaniya istehsalı olan "Leopard 2" tanklarını Kiyevə göndərsə, Berlin buna müdaxilə etməyəcək.

Bunu Almaniyanın xarici işlər naziri Annalena Berbok deyib.

Qeyd edək ki, "Leopard 2" tankının ixrac lisenziyası mövcuddur və buna görə digər ölkələr öz tanklarını Ukraynaya göndərmək üçün Almaniyadan icazə almalıdırlar.

## Əlcəzairdə helikopter qəzası: Biri polkovnik olmaqla, üç hərbçi ölüb



Əlcəzairin şimalında Ayn-Defla əyalətinin El Attaf rayonunda orduya məxsus "Mi-171" helikopteri qəzaya uğrayıb.

Bu barədə "Algeria Press Service" məlumat yayıb.

Məlumata görə, qəza nəticəsində biri polkovnik olmaqla, üç hərbçi həlak olub.

Helikopterin planlı təlim uçuşu həyata keçirdiyi qeyd edilib.

Hazırda hadisənin başvermə səbəbləri araşdırılır.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhidin anım mərasimi keçirilib



Kürdəmir rayonunda İkinci Qarabağ müharibəsi şəhidlərindən olan əsgər Ziyadxan İbrahim oğlu Əliyevin anım mərasimi keçirildi.

Tədbirdə şəhidin ailə üzvləri, yaxınları, Kürdəmir rayon ictimaiyyət nümayəndələri, hərbi qulluqçular və Azərbaycanın digər bölgələrindən olan şəhid valideynləri iştirak etdilər.

Əvvəlcə Kürdəmir rayon Şəhidlər xiyabanında şəhidin məzarı ziyarət edildi, önünə əklil və gül dəstələri düzüldü. Ümummilli Lider Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Mərasimdə çıxış edən mayor Qorxmaz Mehdiyev şəhidin həyatı və döyüş yolu haqqında qısa danışaraq bildirdi ki, o, 1997-ci il yanvarın 12-də Kürdəmir rayonunun Carlı kəndində anadan olub. Əslən Cəbrayıl rayonunun Soltanlı kəndindən olsa da, yurdyuvasından didərgin salınaraq Kürdəmirdə məskunlaşıblar. 2019-cu ildə hərbi xidmətə yollanan Ziyadxan Əliyev 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinə Suqovuşan istiqamətindən qatılıb. Tibb məntəqəsinin heyətində yaralıların döyüş meydanından təxliyyə edilməsində iştirak edib. Gərgin döyüşlər zamanı vəzifə borcunu yerinə yetirərkən düşmən snayperinin atəşi nəticəsində oktyabrın 1-də şəhidliyə ucalıb. Oktyabrın 2-də Kürdəmir rayon Şəhidlər xiyabanında dəfn olunub.

Ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən Ziyadxan Əliyev 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.

Hərbi Hava Qüvvələrinin zabiti Nəsimi Babaşov şəhidin ailəsinə başsağlığı verərək deyib: "Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında yenilməz ordumuz torpaqlarımızı erməni işğalından azad etdi, qalib Azərbaycan xalqı öz vətənpərvərliyini, əzmini bütün dünyaya tam aydınlığı ilə göstərdi. Bu gün biz də unudulmaz anım qəhrəmanı olan şəhid Ziyadxan Əliyevin anım günü münasibətilə onun məzarını ziyarət etmişik. Allahdan hər bir şəhid ailəsinə, yaxınlarına səbir, özlərinə isə rəhmət diləyirəm".

Anım mərasimində polkovnik Namiq Bayramov da çıxış edərək vurğuladı ki, şəhidlərimizin əziz xatirəsi hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaqdır. Dövlət başçımızın şəhid ailələrinin sosial qayğılarına göstərdiyi böyük diqqət göz qabağındadır. Bizlər də belə tədbirlər təşkil etməklə şəhidlərimizi gənclər üçün nümunə göstərməliyik.

Sonra şəhidin xatirəsinə mərasim düzənlənib, ruhuna dualar oxunaraq ehsan süfrəsi açılıb.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun hərbi hissələrinə yeni gələn çağırışçıların qəbulu davam edir

*"Azərbaycan Respublikası vətəndaşlarının 2023-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması haqqında" Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamının icrası ilə bağlı Azərbaycan Ordusunun təlim hərbi hissələrində gənc əsgərlərin qəbulu davam edir.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, xidmətə yeni gələn bütün çağırışçılar hərbi hissələrin qəbul məntəqələrində qeydiyyatdan keçdikdən sonra tibb məntəqələrində hərbi həkim komissiyası tərəfindən təkrar müayinə olunur, mövsümə uyğun hərbi geyimlə və digər təminat növləri ilə tam təmin olunurlar.

Şəxsi heyətin qidalanmasına xüsusi diqqət yetirilir, əsgər yeməkxanalarında sanitar-gigiyenik qaydalara riayət olunmaqla dadlı və keyfiyyətli yeməklər hazırlanır.

Hərbi xidmətin xüsusiyyətləri, xidmət edəcəkləri hərbi hissə, günün nizam və təhlükəsizlik qaydaları barədə çağırışçılara ətraflı məlumat verilir, maarifləndirici və fərdi söhbətlər aparılaraq onların psixoloji xüsusiyyətləri öyrənilir.

Gənc əsgərlərin hazırlığı proqramına uyğun olaraq onlarla fərdi hazırlıq məşğələləri keçirilir. Məşğələlərdə gənc əsgərlərə nizamnamə və hərbi qanunvericiliyin müvafiq tələbləri, hərbi intizam qaydaları, eləcə də sıra, fiziki və atəş hazırlığı üzrə çalışmaların elementləri aşılanılır.



## Maraq dünyamız

# Ürək haqqında maraqlı faktlar

Orta yaşlı bir adamın ürəyi dəqiqədə təxminən 72 dəfə, gün ərzində 100.000 dəfə, həyatı ərzində isə təxminən 2.5 milyard dəfə döyünür.

İnsan ürəyindən ömrü ərzində keçən qanın miqdarı, bütün gücü ilə işləyən mətbəx kranından 45 il ərzində axan suya bərabərdir. Ürək döyünməsi ana bətninin 4-cü həftəsindən etibarən başlayır.

Qadınlarda ürək orta hesabla dəqiqədə 78, kişilərdə isə 72 dəfə döyünür.

Qədim misirlilər ürək və digər vacib orqanların bədən daxilində hərəkət etdiklərinə inanırdı.

Gülmək insan ürəyini sağlamlaşdırır. Gülüş sayəsində ürək divarları daha yumşaq olur, qan dövranı isə təxminən 20 faiz sürətlənir.

İl ərzində ən çox infarkt halları dekabrın son həftəsində və bazar ertəsi günləri baş verir.

İnsanın ürəyi elektrik impulslar yaradır. Buna görə də orqanizmdən kənarda da bir müddət işləyə bilir.

Ürək əzələləri digər bütün əzələlərdən daha yüksək tempdə işləyir.

**"Azərbaycan Ordusu"**

# İdman

## "Azəryol" ölkə çempionatında liderliyini davam etdirir



Qadın həndbolçuların Azərbaycan çempionatında növbəti turunun oyunları keçirilib.

Doqquzuncu turun "Azəryol"-"Azərsu" görüşündə nominal ev sahibinin qələbəsi şübhə doğurmurdu. İlk dəqiqələrdən təşəbbüsə yiyələnən "Azəryol" etimadı doğruldaraq, oyunu böyük hesablı qələbə ilə başa vurub - 46:19. "Qarabağ"-"İdman Akademiyası" matçında da gözlənilməz nəticə qeydə alınmayıb. Oyunun favoriti sayılan "Qarabağ" rəqibin ciddi müqavimətinə baxmayaraq, azarkeşlərini növbəti qələbə ilə sevindirib - 34:26.

Yarışın 10-cu turu da eyni ssenari ilə yadda qalıb. "Azəryol" "Azərsu"nu bu turda 52:13, "Qarabağ" isə "İdman Akademiyası"nı 32:23 hesabı ilə məğlub edib.

Keçirdiyi bütün oyunları qələbə ilə başa vuran "Azəryol" 24 xalla çempionatın lideridir. "Qarabağ" ondan 6 xal geri qalır. Aktivində 12 xalı olan "İdman Akademiyası" turnir cədvəlində üçüncü pillədə qərarlaşıb. "Azərsu" 6 xalla 4-cü yerdədir. Autsayder "U-16" hələ ki, xal qazana bilməyib.

## Boksçularımız ilin ilk beynəlxalq yarışı olan Millətlər kubokunda 11 medal qazanıblar



Serbiyanın Sombor şəhərində qız və qadın boksçular arasında keçirilən Millətlər kubokuna yekun vurulub. Yarışın sonuncu - altıncı günündə Azərbaycan millisi aktivinə 3 gümüş medal əlavə edib.

Gənc boksçular arasında Lalə Mədətova (48 kq) və Aynur Mikayılova (52 kq), böyüklərdə Şəhla Allahverdiyeva (66 kq) turniri ikinci pillədə bitiriblər.

Beləliklə, 13 ölkədən 100-dən çox idmançının qatıldığı Millətlər kubokuna 12 boksçu ilə yollanan yığmamız - 2 qızıl, 3 gümüş və 6 bürünc medala sahib olub. İlin ilk beynəlxalq yarışında Mədətova, Mikayılova və Allahverdiyevadan öncə yeniyetmələrin mübarizəsində Banuçiçək Nəsirli (46 kq), gənclərdə Emili Rzayeva (66 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Məktəbli boksçular arasında Səma Hüseynova (54 kq), gənclərdə Aysu İsmayılova (48 kq), Nərmin Əlizadə (50 kq), böyüklərdə Günel Rəhimova (48 kq), Anaxanım İsmayılova (50 kq) və Esmira Məmmədova (63 kq) isə bürünc medala yiyələniblər.

## Ronaldodan "Əl-Nəsr"də rəsmi debüt



Kriştiano Ronaldonun yeni komandası "Əl-Nəsr" Səudiyyə Ərəbistanı çempionatında növbəti oyununa çıxıb.

Ər-Riyad təmsilçisi 14-cü turda öz meydanında "Əl-İttifaq"la qarşılaşıb.

Oyun "Əl-Nəsr"in qələbəsi ilə başa çatıb - 1:0. Yeganə qolu 31-ci dəqiqədə Anderson Taliska vurub.

Kapitan sarğısı ilə start heyətdə meydana çıxan Ronaldo sonadək oynayıb. Bu, 38 yaşlı futbolçunun "Əl-Nəsr"də ilk rəsmi oyunu olub.

**AZƏRTAC-ın materialları əsasında**

Leytenant Ağalarov Ağasəlim Mirabdulla oğluna məxsus MN № 0058330 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Dadaşov Nicat Tehran oğluna məxsus AD № 0042554 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| kapitan Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 37 Nüsxə 4661 |